**UOT 069.**

**Aqil Mahmud oğlu Əliyev**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**magistrant**
**E-mail: kitabsevas@gmail.com**

# LEOPOLD VƏ MSTİSLAV ROSTROPOVİÇLƏRİN XATİRƏ EV-MUZEYİNİN YARADILMASINI ZƏRURİ EDƏN ƏSAS AMİLLƏR

**Xülasə:** Azərbaycanda və dünyada muzeylər bir çox səbəbdən yaranmışdır. Muzeylər millətlərin varlığını sübut etmək, insanlığın inkişafında öz töhfələrini vermiş şəxsləri əbədiləşdirmək üçün yaradılır. Leopold və Mstislav Rastropoviçlər həmin şəxslər sayılır ki, dünyaya bir çox təsirləri olmuşdur.

**Açar sözlər:** Leopold və Mstislav Rastropoviçlər, xatirə ev-muzeyi, violonçel, musiqi irsi

**Giriş.** Mstislav Leopoldoviç Rostropoviç XX-XXI əsr dünyanın tanınmış violonçel ifaçısı və dirijoru idi. Musiqiçi olmaqla bərabər ictimai xadim, mədəniyyət və incəsənətin inkişafı ilə əlaqədar böyük işlər görmüş şəxs  və insan hüquq və azadlıqlarının fəal müdafiəçisi kimi də tanınırdı. Həmçinin Mstislav Rastropoviç dünya musiqi mədəniyyətinin korifeylərindən sayılır. O, bir çox sahədə müasir Azərbaycanın inkişafına töhfələr verən və böyük sosial yardımlar edən bir şəxsiyyətdir. Bu baxımdan Leopold və Mstislav Rostropoviçlərin xatirəsinin əbədiləşdirilməsi müasir Azərbaycan tarixi və mədəniyyəti baxımından aktuallıq kəsb edir. 1998-ci ildə Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə görkəmli musiqiçilərin Leopold Mstislav Rastropoviçlərin xatirə ev-muzeyi yaradılmışdır. Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyi dünya şöhrətli violonçelçi, Mstislav Rostropoviçin anadan olduğu və uşaqlıq illərini keçirdiyi evdədir. Muzey 2002-ci il mart ayının 4-də açılmışdır.

**Giriş.** Mstislav Rostropoviç müasir dünya musiqisinin inkişafına misilsiz töhfələr vermiş böyük sənətkardır. O, violonçel ifaçılığı tarixində yeni bir dövr açmış və ən mötəbər konsert salonlarında orkestr dirijoru kimi çoxsaylı çıxışlar etmişdir. Bununla da ümumbəşər mədəniyyəti xəzinəsini daha da zənginləşdirmişdir.

Mstislav Rostropoviçin doğma vətəni Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsində və xalqımızın musiqi sənətinin inkişaf etdirilməsində müstəsna xidmətləri olmuşdur.

Bu nəslin ululları Polşada və Litvada yaşayıblar. Rostropoviçyuslar kimi tanınıblar. Onların köklü nəsil tarixləri Yan Rostropoviçyusdan (birinci nəslin nümayəndəsi) başlanır. Bu nəsildə rus, polyak, Litva və çex xalqlarının nümayəndələri olub.

Rostropoviçlərin bütün nümayəndələri musiqiyə sonsuz maraqları və istedadları ilə fərqləniblər. Onlar fortepianoda çalmağı bacarıb, gözəl səslə mahnılar oxuyublar. Bundan əlavə, hər dəyişən nəslin bir neçə nümayəndəsi öz həyatını bilavasitə musiqiyə həsr edib.

Mstislav Rostropoviçin atası Leopold səkkizinci nəslin nümayəndəsidir. O, 13 yaşında Peterburq Konservatoriyasına daxil olur və ömrünü fortepiano ilə bağlayır. Sonralar həm pedaqoji fəaliyyətlə məşğul olur, həm də xaricə, həmçinin SSRİ-nin müxtəlif yerlərinə, o cümlədən Bakıya və Tbilisiyə qastrol səfərlərinə çıxır. Böyük oktyabr sosialist inqilabından sonra Leopold işsiz qalır. Petroqradda aclıq başladığından Saratova köçür və dörd il burada yaşayır. Lakin konsert turnelərindən biri onu Orenburqa çəkir. Təxminən 1925-ci ilin ortalarında L.Rostropoviç Üzeyir bəy Hacıbəylinin dəvəti ilə Bakıya gəlir. Burada o, Azərbaycan Dövlət Konservatoriyasında çalışır, ilk simli kvarteti yaradanlardan biri kimi professional violonçel məktəbinin inkişafına əvəzsiz töhfələr verir. Leopold Rostropoviç həyatının Bakıda keçən dövründə dörd violonçel konsertinin, fortepiano və violonçel üçün pyeslərin, fortepiano əsərlərinin müəllifi olur, çoxlu mahnılar bəstələyir. 1927-ci il martın 27-də gənc ailənin ikinci övladı – Mstislav dünyaya gəlir.

Mstislav Rostropoviçin ilk illəri Bakıda keçmişdir. Dörd yaşında ikən anasından piano ifaçılığının sirlərini öyrənmiş, 10 yaşında isə atasından violonçelin incəliklərini əxz etmişdi. Sonralar böyük sənətkar yazırdı: “Mən uşaq ikən Bakıda yaşayarkən 5 yaşınadək royal çalır, musiqi bəstələyirdim. Bir sözlə, fitri istedad idim. Lakin buranı tərk edərkən fitri istedadımı itirib adi istedada çevrildim. Çox şey itirdim, gərək getməyəydim, Bakıda yaşayaydım...” [4].

İkinci Dünya müharibəsi illərində onların ailəsi yenidən Orenburqa, sonra Moskvaya köçür. Rostropoviçin həyatı çox keşməkeşli olmuşdur. Sovet ideologiyasının ən təhlükəli illərində o, siyasi təzyiqlərdən azad sənət, sərbəst fikir və bu kimi kommunist ideologiyasına zidd demokratik ideyaları çəkinmədən səsləndirmişdir. Sovet hakimiyyətinə qarşı müxalif fikirləri ilk dəfə özünü 1948-ci ildə Moskva Konservatoriyasında təhsil aldığı illərdə göstərmişdir. Həmin dövrdə “formalist” bəstəkarlar haqqında qəbul edilmiş fərman nəticəsində müəllimi D.Şostakoviçin Sankt-Peterburq və Moskva konservatoriyalarında professorluq dərəcələrindən məhrum edilməsinə cavab olaraq, 21 yaşlı Rostropoviç etiraz əlaməti kimi təhsil ocağını tərk etmişdi. 1970-ci ildə isə sovet ideologiyasının təqiblərinə məruz qalmış yazıçı Aleksandr Soljenitsınla dostluğu hakimiyyətin qəzəbinə gəlmiş, özünün və ailəsinin xarici səfərlərə getməsinə qadağa qoyulmuşdu. Lakin bununla belə, solo konsertlər vermək üçün sənətkar Sibirə göndərilmişdi.

Nəhayət, 1974-cü ilin mayında Rostropoviç Moskva Konservatoriyasının Böyük zalında Çaykovskinin əsərlərindən ibarət vida konserti verir. Həmin ay özü, sonra da həyat yoldaşı SSRİ-ni tərk edirlər [4].

Mstislav Rostropoviç XX əsrin 90-cı illərində Rusiya mədəniyyətinin və musiqisinin inkişafına yenidən böyük töhfələr verir. 1997-ci ildə görkəmli musiqiçi ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakıya dəvət olunur və burada təntənəli surətdə onun 70 illik yubileyi keçirilir. Böyük sənətkar Azərbaycan Respublikasının yüksək mükafatı – “Şöhrət” ordeni ilə təltif edilir.

Növbəti ildə musiqiçinin və ailə üzvlərinin iştirakı ilə Bakıda doğulduğu evdə Rostropoviçlərin ev-muzeyi açılır. Daha sonra Rostropoviç hər il Bakıya gələrək burada "Ustad dərsləri" və digər tədbirlər keçirir. 1999-cu ilin noyabr ayında keçdiyi ustad dərsindən sonra belə demişdi: "Mənim hər il bir həftəliyə Azərbaycana səfərim hamını heyrətləndirir. Əlbəttə, bunun üçün bir neçə çıxışımın üstündən xətt çəkməli oluram. Lakin ən başlıcası odur ki, sözümün üstündə kişi kimi ("kişi kimi" sözlərini Azərbaycan dilində demişdir – red.) durmuşam".

2002-ci ildə Azərbaycanda dövlət səviyyəsində Rostropoviçin 75 illik yubileyi qeyd edilir. Onun təşəbbüsü ilə Üzeyir bəy Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinə yapon musiqi alətləri hədiyyə edilir.

1997-ci ildə Bakıda olarkən böyük sənətkar Şəhidlər xiyabanına gedir və orada göz yaşlarını saxlaya bilmir. Fəxri xiyabanda əziz dostları Niyazinin, Qara Qarayevin məzarlarını ziyarət edir. Bakıdakı çıxışlarının birində deyir: "Mən nəvələrimi xüsusi olaraq ona görə gətirmişəm ki, qoy onlar görsünlər babaları harada yaşamışdır. Həyatımız elə gətirdi ki, bizi ölkəmizdən – Sovet İttifaqından didərgin saldılar. Qalina Pavlovnanın mənə bəxş etdiyi qızlarım öz iradəsindən asılı olmayaraq qürbətə düşdülər, orada ərə getdilər. Birinin əri fransız, o birinin əri isə italyandır. Biz öz qanımızı zənginləşdirsək də, köklərimiz Bakıdadır" [4].

Rostropoviç sənətinin qüdrəti onun nadir istedadı, fitri qabiliyyəti, fədakar əməyi, musiqiyə hədsiz məhəbbətindən yaranıb. Ulu öndər Heydər Əliyev böyük sənətkara 70 illiyi münasibətilə göndərdiyi təbrik məktubunda yazmışdır: "Mənən azad olmayan sənətkar yarada bilməz" müddəasını özündə əks etdirən yaradıcılıq əqidəniz insan haqlarının müdafiə olunması sahəsindəki fəaliyyətinizdə də öz ifadəsini tapmışdır" [3].

Leopold və Mstislav Rastropoviçlərin xatirə-ev muzeyinin açılması.

Azərbaycanın Ulu öndəri Heydər Əliyev bütün sahələrə diqqət ayırmışdır. Bu tarixi faktlardan biri dünya söhrətli Leopold va Mstislav Rastropoviçlərin ev-muzeyinin yaradılması üçün verilən Sərəncam olmuşdur.

Sənəddən oxuyuruq: "Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Bakı şəhəri, 23may 1997-ci il. No 571

Leopold va Mstislav Rastropoviçlərin dünya musiqi sənətinin inkişafında görkəmli xidmətlərini nəzərə alaraq qərara alıram:

1. Leopold və Mstislav Rastropoviçlərin yaşadıqları mənzildə (Bakı şəhəri Leopold və Mstislav Rastropoviçlərin küçəsi. 19) ev-muzeyi təşkil olunsun.

2. Nazirlər Kabineti və Bakı şəhəri icra Hakimiyyəti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

1998-ci ildə Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə görkəmli musiqiçilərin Leopold və Mstislav Rastropoviçlərin xatirə ev-muzeyi yaradılmışdır.

Leopold və Mstislav Rastropoviçlərin ev-muzeyi dünya şöhrətli violonçelçi, Mstislav Rastropoviçin anadan olduğu və uşaqlıq illərini keçirdiyi evdədəir. Muzey

2002-ci il mart ayının 4-də açılmışdır [2. 213].

Muzey 4 otaqdan ibarətdir. Ümumi sahəsi 106 kv.m, ekspozisiya sərgi sahəsi 77 kv.m.

XX əsrin görkəmli musiqiçiləri Leopold və Mstislav Rastropoviçlərin ev-muzeyinin fonduna 2003-cü ilə qədər 1718 ədəd müxtəlif eksponat daxil olub. Bu eksponatlar arasında rəsm əsərləri, antikvar mebel və əşyalar, qədim xalça, orden və medallar, xatirə əşyaları, nadir notlar, afişalar, konsert proqramları, kitablar, bukletlər, jurnallar, qəzetlər var.

Fondlar öz xarakterinə görə bir neçə hissəyə ayrılıb:

1. Foto neqativ təsviri sənət fondu;
2. Maddi abidələr fondu;
3. Foto-video yazılar fondu;
4. Yazılı abidələr fondu;
5. Orden və medal fondu;
6. Xatirə memorial fondu;
7. Elmi-köməkçi və müvəqqəti mühafizə fondu mövcuddur.

M.Rostropoviçin yaradıcılığını isə Rostropoviçlər nəslində olan musiqi istedadının tam zirvəsi kimi qiymətləndirmək olar. M.Rostropoviçin dünya musiqi mədəniyyətindəki rolunu tam şəkildə qiymətləndirmək çox çətindir. İstedadı böyük, yüksək professional səviyyəli sənətkar incəsənətdə nəhəng simadır. İncəsənət aləmində istedadının ən şərəfli zirvəsinə çatan M.Rostropoviç demək olar ki, dünyanın bütün dövlətlərinin ən yüksək orden və medallarına, mükafatlarına, eləcə də fəxri doktor rütbələrinə layiq görülmüşdür [1. 93].

Həmçinin Leopold və Mstislav Rastorpoviçlərin xatirə ev-muzeyində ildönümlərinə həsr edilmiş musiqi gecələri keçirilmişdir. Bu musiqi gecələrindən biri "Dünya şöhrətli bakılı Mstislav Rostropoviçin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş musiqi axşamı"dır. Rostropoviçlərin ev-muzeyində maestronun doğum günü hər il xüsusi tədbirlərlə qeyd olunur. Martın 29-da muzeydə Mstislav Rostropoviçin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Adagio" adlı klassik musiqi axşamı keçirilib.

Konsertdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbi şagirdlərinin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndirilib. Muzeyin əməkdaşları maestronun həyat və yaradıcılığından söz açıblar. M.Rostropoviçə həsr edilmiş "Günəbaxan" sənədli filmi nümayiş olunub.

Sonda şagirdlərə muzey tərəfindən təşəkkürnamələr təqdim edilib [5].

Son olaraq Leopold və Mstislav Rastropoviçlərin istər musiqi dünyasına, istərsə də insanlıq üçün etdiklərinin nəticəsi olaraq xatirə ev-muzeyinin yaradılması labüddür.

## Ədəbiyyat siyahısı:


1. “Məlikova E. Azərbaycan muzeyşünaslığı. Monoqrafiya, II cild, Bakı, 2012, 463 səh.
2. Məlikova E. Azərbaycanın memorial xatirə muzeyləri. Dərslik, Bakı, 2009, 232 səh.
3. http://www.musigi-dunya.az/new/read_magazine.asp?id=100&page=3
4. https://www.anl.az/down/meqale/azerbaycan/2017/aprel/539905.htm
5. https://www.anl.az/down/meqale/medeniyyet/2023/mart/842295.htm


**Agil Mahmud Aliyev**

## CREATION OF A MEMORIAL HOUSE MUSEUM OF LEOPOLD AND MSTİSLAV ROSTROPOVICHs

**Summary:** Museums in Azerbaijan and around the world were created for many reasons. Museums are created to prove the existence of nations, to perpetuate the people who contributed to the development of humanity. Leopold and Mstislav Rastropovich are considered to be those people who had many effects on the world. Mstislav Leopoldovich Rostropovich was a well-known violinist and conductor of the 20th-21st centuries. In addition to being a musician, he was also known as a public figure, a person who did great work in the development of culture and art, and an active defender of human rights and freedoms. Mstislav Rastropovich is also considered one of the luminaries of world music culture. He is a person who contributed to the development of modern Azerbaijan in many fields and made great social contributions. In this regard, the perpetuation of the memory of Leopold and Mstislav Rostropovich is relevant in terms of modern Azerbaijani history and culture. In 1998, by the decision of the Cabinet of Ministers of Azerbaijan, the memorial house-museum of famous musicians Leopold Mstislav Rastropovich was established. The house-museum of Leopold and Mstislav Rostropovich is located in the house where the world-famous cellist Mstislav Rostropovich was born and spent his childhood years. The museum was opened on March 4, 2002.

**Key words:** Leopold and Mstislav Rastropovich, memorial-house museum, cello, musical heritage.

**Агил Махмуд Алиев**

# СОЗДАНИЕ МЕМОРИАЛЬНОГО ДОМА-МУЗЕЯ ЛЕОПОЛЬДА И МСТИСЛАВА РОСТРОПОВИЧЕЙ

**Резюме:** Музеи в Азербайджане и во всем мире создавались по многим причинам. Музеи создаются, чтобы доказать существование наций, увековечить людей, внесших вклад в развитие человечества. Леопольд и

Мстислав Растроповичи считаются людьми, оказавшими большое влияние на мировую культуру.

Мстислав Леопольдович Ростропович – известный скрипач и дирижер XX-XXI веков. Помимо того, что он был музыкантом, он был известен и как общественный деятель, человек, проделавший большую работу по развитию культуры и искусства, активный защитник прав и свобод человека. Мстислав Растропович также считается одним из корифеев мировой музыкальной культуры. Он человек, внесший вклад в развитие современного Азербайджана во многих областях, внесший большой вклад в социальную жизнь. В связи с этим увековечение памяти Леопольда и Мстислава Ростроповичей актуально с точки зрения современной азербайджанской истории и культуры. В 1998 году по решению Кабинета Министров Азербайджана был создан мемориальный дом-музей известного музыканта Леопольда Мстислава Растроповича. Дом-музей Леопольда и Мстислава Ростроповичей расположен в доме, где родился и провел свои детские годы всемирно известный виолончелист Мстислав Ростропович. Музей был открыт 4 марта 2002 года.

**Ключевые слова:** Леопольд и Мстислав Растроповичи, дом-музей, виолончель, музыкальное наследие

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**